POL STRATERN



# 90 DƏQİQƏDƏ PLATON

BAKI FƏLSƏFƏ AKADEMİYASI

Pol Stratern

# 90 Dəqiqədə Platon

Pol Stratern

**90 Dəqiqədə Platon**

Tərcüməçi: **Araz Əliyev**

Redaktor: **Qoşqar Abbas**

Korrektor: **Aqşin Aşırov**

Dizayn və tərtibat: **QR**

44 səh.

© Paul Strathern, 1996

© Bakı Fəlsəfə Akademiyası, 2021

www.bakuphilosophy.com

bakuphilosophy@gmail.com

## Pol Stratern

Şotland-İrland əsilli yazıçı Pol Stratern 1940-cı ildə Londonda doğulub. Dublin Trinity kollecində fəlsəfə təhsili alıb. 1972-ci ildə *"Həbəşistanda bir fəsil"* adlı əsəri ilə Somerset Moem mükafatına laiq görülüb. Beş romanı ilə yanaşı səfər təəssüratları, elm, fəlsəfə, tarix, ədəbiyyat, tibb və iqtisadiyyat mövzulu çoxsaylı kitabların da müəllifidir. Kimya tarixi ilə bağlı *"Mendeleyevin arzusu"*(2000) əsərinə görə Aventis mükafatına laiq görülüb. İqtisadiyyat tarixi ilə bağlı araşdırmalarının yer aldığı *"Dr. Strenclovun oyunu"*(2001) ilin *"Google business"* kitabı seçilib. *"90 dəqiqədə filosoflar", "Böyük düşüncə: Dünyanı dəyişdirən elm adamları"* kimi qısa kitab seriyalarının müəllifidir. Yetəri qədər ağır mövzular haqqında şotland açıqlığı və irland yumoru ilə olduqca aydın şəkildə yazan müəllif Kinqston Universitetində riyaziyyat, elm və fəlsəfə üzrə mühazirələr oxumuş, əsərləri iyirmidən çox dilə tərcümə edilmişdir.

Məşhur əsərləri arasında "*Mediçi: Renessansın xaç atası"*(2003), *"Napoleon Misirdə"*(2007), *"Rəssam, filosof və döyüşçü: Leonardo, Makiavelli və Borcia - qaçınılmaz gizli müqavilə"*(2009) *"Venesiya ruhu: Marko Polodan Kazanovaya"*(2012), *"Periodik cədvəl"*(2015) yer alır. Ən sonuncu kitabları arasında *"Borcialar"*(2019), *"Yüksəlmə və çöküş: On imperiyada dünya tarixi"*(2019) kimi maraq doğuran əsərlər var. Pol Stratern hazırda Londonda yaşayır.

## Akademiyadan

"90 dəqiqədə Platon" Bakı Fəlsəfə Akademiyasının sayca üçüncü kitabıdır. "Hər kəs üçün fəlsəfə" ideyasına sadiq qalaraq daha çox oxucunu fəlsəfə ilə tanış etmək, dilimizdəki mənbə məhdudiyyətini aradan qaldırmaq məqsədi ilə kitabı oxucularımıza təmənnasız elektron formada təqdim edirik.

Kitab Bakı Dövlət Universitetini fəlsəfə tarixi ixtisası üzrə doktorantı Araz Əliyev tərəfindən heç bir qarşılıq güdülmədən, təmənnasız olaraq tərcümə edilmişdir. Kitabın tərcümə prosesi ilk öncə türk dilindəki nəşri üzərində başlanılmışdır. Lakin daha sonra bu nəşrdəki çatışmazlıq və xətalar nəzərə alınaraq rus dilindəki nəşrinə müraciət olunmuşdur. Ən sonda isə kitabın orjinal ingilis dilli nəşri əldə olunmuş, kitab orjinal formaya uyğun yenidən tərcümə və korrektə edilmişdir.

Bakı Fəlsəfə Akademiyası olaraq türk dilindən Azərbaycan dilinə tərcümə edilən kitabların böyük əksəriyyətini, həmçinin digər dillərdən qarşılıqsız tərcümə edilən kitabları təmənnasız və ya elektron formada yayımlayacağıq.

Hörmətlə,
Bakı Fəlsəfə Akademiyası
Bakı, 2021

## Mündəricat


Ön söz | 7

Platonun həyatı və əsərləri | 10

Platonun əsərlərindən seçmələr | 26

Son söz | 37

Əhəmiyyətli fəlsəfi hadisələrin xronologiyası |39

Platonun həyatının xronologiyası | 42

Platon dövrünün xronologiyası | 43

Tövsiyə olunun ədəbiyyat | 44

# Ön söz

Platon fəlsəfəni öldürdü. Ən azından bəzi çağdaş düşüncə xadimləri bizi buna inandırmağa çalışırlar. İstər Nitsşe, istərsə də Haydeqqer fəlsəfənin heç vaxt Sokratın təsirindən (Platon tərəfindən fikirləri və sözləri ötürülən) xilas olmadığı düşüncəsində həmfikirdirlər. Deyə bilərik ki, ağılın müdaxiləsi analitik düşüncəni və nəticə əldə etməyə imkan verən arqumentasiyanı bütövlüklə səhv çıxarmışdı.

Sokratın bu rasional tərəqqisi əsnasında hansı parlaq ənənə yox olmuşdu? Pre-sokoratik dövrdə ağıla gələ bilən bütün dərin sualları verən bir ovuc parlaq, amma dəli obrazlar var idi. Filosoflar bu gün hələ də onlara bu sualların cavablarını borcludurlar. Bu cür sualların verilə bilməyəcəyini iddia edərək məsələdən sıyrılmağa çalışan çağdaş filosoflar da bura daxildir.

Pre-sokoratik fəlsəfənin ən qəribə və çılğın təmsilçisi Pifaqordur. Onun məşhur müddəası bu gün belə bir çox insana riyaziyyatla bağlı əsas anlayışı əldə etməkdə kömək olur, yəni riyaziyyatı heç vaxt anlaya bilməyəcəklərini... Pifaqor Platona ciddi şəkildə təsir etmişdir. Məhz bu səbəbdən də Platonun düşüncə tərzinin heç olmasa bir qismini anlamaq üçün Pifaqora müraciət etməliyik.

Pifaqor təkcə filosof deyildi. O, fəlsəfəni eyni zamanda dini liderlik, riyaziyyat, mistisizm yolunda və qida məsləhətçisi olaraq da istifadə edirdi. Bütün bu yorucu intellektual fəaliyyətləri fəlsəfə-

sində izlər buraxmışdı. Pifaqor e.ə. 580-ci illərdə Samosda dünyaya gəlir, amma buradakı zülm səbəbi ilə qaçır və Cənubi İtaliyada bir yunan kaloniyası olan Krotonda dini-fəlsəfi-pəhrizi riyaziyyat məktəbi yaradır. Xırdalıqlara əsaslanan nizam-intizam mistik müridlərinin bir arada yaşamasını təmin edirdi. Paxlalı bitkilər ya da ürək əti yemək, çörəyi digərlərindən əvvəl kəsməyə başlamaq, qaranquşların damda yuva qurmalarına icazə vermək, hələ nə olursa olsun öz bəslədiyin iti yemək günah hesab olunurdu.

Aristoteldən öyrəndiyimizə əsasən Pifaqor bütün bunlara rəğmən möcüzələr yaratmağa da imkan tapmışdı. Qəribə olan isə Aristotel kimi birinin bunları xırdalıqlarına qədər izah etməsidir. Bertrand Rassel Pifaqoru Eynşteyn və Mrs. Eddynin qarışığı kimi izah etmişdir. Bütün yaxşı tərəflərinə baxmayaraq bir gün Pifaqor Kroton vadisini də boğaza yığır və ikinci dəfə qaçmaq məcburiyyətində qalır. Metapontiona çıxan küçəyə yerləşir və ölənə qədər də orda yaşayır (e.ə. 500). Təlimləri ölümündən sonra bir əsr də gündəmdə qalır və riyaziyyatçı-mistik icması bunları bütün Cənubi İtaliyaya və Yunanıstana yayır. Platon Pifaqoru onlar sayəsində öyrənir.

Sokrat kimi Pifaqor da təlimlərini yazıya köçürməyəcək qədər diqqətli idi. Onun təlimlərini sadəcə ikinci mənbədən öyrənirik. Bu gün Pifaqor fəlsəfəsi olaraq tanınan və elmdən dəliliyə doğru uzanan qarma-qarışıqlığının – bütün qarışıq fikirləri deməsək də – böyük qismindən onun müridləri məsuliyyət daşıyır. Bu səbəblə də bir çox insan Pifaqorun məşhur hipotenusun kvadratını əldə etmək teoremini böyük ehtimalla özünün belə anlamadığı düşüncəsi ilə rahatlıq tapırlar.

Pifaqorun daha bir məşhur aforizmi olan *“hər şey rəqəmdir”* Platonun üzərində dərin təsirə malik olmuşdu. Bu söz fərasətli olduğu qədər nüfuz sahibi də olan Pifaqorun fəlsəfəsinin açarı idi.

Pifaqor qarma-qarışıq dünyanın ardında mücərrəd və bir-birinə uyğun (harmonik) rəqəmlər dünyasının gizli olduğunu düşünürdü. Onun rəqəm anlayışı bu gün bizim “forma” dediyimiz şeyə bənzəyir. Bu yanaşmaya görə, nəsnələr maddələrdən deyil, yaradıldıqları formalardan ortaya çıxmışdır. Rəqəmlərin və formaların ideal dünyası harmoniya içərisindədir və gerçəklikdən daha gerçəkdir. Pifaqor ya da Pifaqorçular rəqəmlər və musiqili harmoniya arasındakı əlaqəni kəşf etmişdilər. Bu kəşfin işığı altında Pifaqorun formalar nəzəriyyəsi çox qədimə gedib çıxmır. Rəqəmlərə, substansiyanın deyil də formanın ifadəsinə əsaslanan müasir zərrəciklər fizikası baxımından bu nəzəriyyə sanki xətalıdır.

Substansiyadan təmizlənmiş düşüncə pre-sokratik filosoflarda da qarşımıza çıxır. Pifaqorun tələbələrindən olan Heraklit, məsələn, *“hər şey axır”* düşüncəsini müdafiə edirdi. Ona görə, eyni çaya iki dəfə girmək mümkün deyildi. Heraklitin düşüncəsi yenə də saf formadan uzaqlaşırdı. O, müasir elmdən iki min il əvvəl kainatın atomlardan təşkil olunduğunu irəli sürən Demokritin sələfidir.

İoniyalı Ksenefontun gəldiyi nəticəyə gəlmək üçün fəlsəfənin iki min ilə ehtiyacı olmuşdu. O da Sokratdan əvvəlki dövrdə yaşamış və açıq şəkildə belə demişdi: *“tanrılar və yer üzündəki hər şey haqqındakı gerçəkləri bilən bir insan heç vaxt olmamışdır və olmayacaqdır. Ayrıca da əsl həqiqətlə bir dəfə qarşılaşsa belə, bunun fərqində olmayacaqdı. Çünki düşüncələr ancaq biz insanlar üçün xarakterikdir”.*

Bu ifadə XX əsrdə Vitgenştaynın irəli sürdüyü fikirə təəccüblü şəkildə bənzəyir. Sokrat və Platon bu zəngin və çox yönlü fəsəfi ənənədə addımlamışdır.

# Platonun həyatı və əsərləri

Bu gün bildiyimiz adı ilə tanınan Platon tanınmış güləşçi idi. Yarışmalarda istifadə etdiyi ad "Platon" "geniş", "yastı" mənalarını verirdi. Böyük ehtimalla geniş və yaxşı formalaşmış kürəklərə sahib idi. Bəzi mənbələrə görə isə bu ad onun alnının formasına görə verilmişdi (burda Platon sözünün ilk mənası ilə təkrarən qarşılaşırıq). Doğulduğu 428-ci ildə Platona "Aristokl" adı verilmişdi. Platon Afinadan ya da Afina sahillərindən 20 km uzaqda Atika yaxınlığında yerləşən Egin körfəzindəki Agina adasında dünyaya gəlmişdi. O, siyasətdə nüfuz sahibi bir ailənin oğlu idi. Atası Ariston Afinanın son kralı Kodrosun, anası isə böyük qanun yaradıcısı Solonun nəslindən idi.

Platon siyasi cəhətdən əhəmiyyətli ailələrin digər ağıllı fərdlərindən fərqli deyildi. Vəziyyət belə ikən ilk gənclik illərindən etibarən özünü siyasi sahədə həddindən artıq bir istəyə aludə etməmişdi. Qumla örtülü meydança oyunlarında iki dəfə güləş növündə mükafat qazanmışdı. Amma görünən odur ki, heç vaxt Olimpiaya qədər yüksələ bilməmişdi. Tragediya yazarı olaraq məşhurlaşmağı da sınamış, ancaq böyük ədəbiyyat yarışlarındakı münsiflər heyətini təsirləndirməyi bacarmamışdı.

Yunanıstanda bugünkü Nobel mükafatına bərabər olan mükafatı almaq və Olimpiadalarda qızıl medal qazanmaq üçün verdiyi bütün uğursuz cəhdlərdən sonra Platon özünü artıq dövlət xadimi

olmaq düşüncəsinə alışdırmağa çalışır. Amma cəhdlərini sonlandırmamışdan əvvəl son bir dəfə də fəlsəfədə sınmağa qərar verir və Sokratı axtarıb tapır.

Beləliklə, ikili arasında ilk görüşdə eşq yaranmış olur. Doqquz il ərzində Platon fasiləsiz hər gün ustadının dizinin dibində oturur, onun bütün düşüncə və fikirlərini mənimsəyir. Sokratın döyüşcü təlim metodu Platonu öz zehni gücünün hamısını ortaya qoymağa məcbur edir və eyni zamanda da fəlsəfənin o ana qədər bilinməyən imkanlarının da fərqinə varmasına təmin edir. Platon gerçək vəzifəsini tapdığı halda, Afina höküməti ona bu yanılğıya istiqamətlənməkdə maneə olmasaydı, az qalsın əvvəlki vəsvəsəsi yenidən oyanacaq və siyasətə qayıdacaqdı. Pelopones müharibəsindən sonra hakimiyyəti ələ keçirən Otuz tiranlardan ikisi (Kritias və Xarmid) onun çox yaxın qohumlarından idi. Onların dəhşət saçan hökmranlıqları hər halda Səddam Hüseyn və Jozef Göbbelsə ilham verərdi, lakin Platon bu iki tiranı heç də təsirli hesab etmirdi. Onlardan sonra sükanı demokratlar təhvil alır. İki il sonra (ordan burdan toplanmış adamların yer aldığı) təsadüfi adamların yer aldığı məhkəmədə Platonun sevimli müəllimini dinsizlik və gəncləri yoldan çıxarmaq cinayətindən ölümə məhkum edirlər. Artıq Platonun gözündə demokratiya da tiranlıq kimi kirlənir.

Platonun Sokratla olan səmimiyyəti onu təhlükəli vəziyyətə salır. Beləliklə, Afinanı tərk etmək məcburiyyətində qalır və on iki il davam edən səyyah həyatı başlamış olur. Ustadından hər şeyi öyrəndiyini düşünərək (ondan öyrəndiyi artıq nədirsə) dünyanı gəzmək istəyir.

O günlərdə dünya kiçik idi və Platon sürgün həyatının ilk dövründə Afinadan otuz kilometr uzaqlıqdakı hardasa evinin qapısı qədər yaxın olan Megarada dostu Evklidin yanında çalışmağa baş-

lamışdı (Bu Evklid o məşhur geometriyaçı Evklid deyil. Sokratın tələbələrindən biridir və səfsətəçi məntiq təlimi ilə məşhurdur. Evklid Sokratı o qədər sevirdi ki, Sokratın ölümünə şahid olmaq üçün düşmən Afina torpaqlarına qadın paltarında gəlmişdi. Hər halda bu davranışı ilə səfsətəçi metodlarının mərdliyə yaraşmadığını irəli sürərək qınayan Sokratı da haqlı çıxarmışdı).

Platon üç il Megarada Evklidin yanında qaldıqdan sonra riyaziyyatçı Teodorusun yanında çalışmaq üçün Şimali Afrikadakı Kirenaya gedir. Hər halda daha sonra Misirə yönəlir. Tarixdən gələn qəribə bir ənənənin təsirinə qapılaraq Asiyada sehirbaz axtarmağa başlamış və Qanq çayına qədər gəldiyini deyirlər, lakin bu çox da ağlabatan deyil. Dəqiq olaraq bildiyimiz on illik səyahətdən sonra günlərin bir günü Siciliyaya çatmış və orada Etna kraterini ziyarət etmiş olduğudur. Bu od çuxuru antik dövrdə turistlər üçün atraksion kimi idi. Üstəlik sadəcə əvəzsiz geoloji fenomen olduğunu yox, buranın ölülər dünyasına baxış imkanı təmin etdiyini düşünür və gələcəkdəki həyat şərtləri haqqında məlumat əldə edə biləcəklərinə inanırdılar. Platon üçün bu kraterin əlavə bir cazibəsi də var idi.

Beşinci əsrdə yaşamış yazıçı-filosof Empedokl o dərəcədə fövqəladə bir zəkaya sahib idi ki, bir tanrının olduğunu sübut etmək üçün özünü qaynayan lavaya atmışdı. O vaxtdan bəri insanlar onun dönüşünü gözləyib dururdular. Bizim bu məsələdə gəldiyimiz nəticə odur ki, Platonun oranı ziyarət etdiyi zamanlarda onda Empedoklun ilahiliyinə dair ilkin şübhələr artıq ortaya çıxmağa başlamışdı. Burada əsas olan Platonun Siciliyada, Cənubi İtaliyada və Yunanıstanda öz təlimlərini yayan Pifaqorçularla əlaqə qurmağıdır. Pifaqor musiqili ahəngin riyazi təqdimatının mümkün olduğunu kəşf etmişdi. Belə ki, bu kəşf onu kainatın bütününün bir şifrə al-

tında var olduğu düşüncəsinə aparıb çıxarmışdı. Onun nəzəriyyəsi Platona dərindən təsir etmiş və Platonu həqiqətin mücərrəd olduğu postulatına gətirmişdi. Pifaqorda rəqəmlərlə başlayan şey, Platonda saf ideyalara çevrilmişdi.

Siciliya ziyarəti əsnasında Platon Sirakuz hökmdarı Dionisin qaynı Dionla yaxın dostluq əlaqəsi qurur. Dion yeni dostu Platonu Dionis ilə tanış edir. Çox güman ki, bunu Platonun saray filosofu vəzifəsinə təyin olunması ümidi ilə etmişdi. Lakin geniş və əhatəli səfərlərə rəğmən Platon Afinalı bir aristokrat kimi qalmış, həmçinin Sirakuzdakı əyalət əsilzadəliyindən elə də təsirlənməmişdi.

Dionis tam mənası ilə həm zalım, həm də qoçu xarakterli olub, bir yandan da ədəbi həvəsə sahib idi. Üstəlik də iki qadına yetə biləcəyi düşüncəsinə aludə olmuşdu. Bu aludəçiliyi səbəbi ilə Doris və Aristomaxe adlı qadınlarla eyni gündə evlənmiş, zifah gecəsi hər ikisi ilə eyni yatağa girmişdi. Plutarxdan öyrəndiyimiz qədəri ilə o gecədən etibarən bir gün Dorislə, bir gün də Aristomaxe ilə yatırdı. (Burdan da Arixtomaxenin hesabla arasının çox da yaxşı olmadığı nəticəsinə gələ bilərik, çünki əks təqdirdə bu cür müqaviləyə razılıq verməzdi). Görünən odur ki, Doinis sadəcə yataqda deyil, ağıla gələn bütün sahələrdə eyni dərəcədə doyumsuzluğa sahib idi. Məsələn, bir dəfə 90 gün davam edən bir ziyafət vermişdi.

Platon səhnəyə çıxdığı zaman Dionis artıq əvvəlki sürətində deyildi. Dünyəvi xoşbəxtliyi İtalyan mətbəxinə hörmət göstərməklə gündə iki dəfə köpənə qədər yeyib, heç vaxt tək yatmamaqla sərhədli olan Dionis ilə digər tərəfdə aristokrat davranışlar içərisində ortalıqda dolaşan ahıl Platon arasında ciddi bir dostluğun olacağı düşünülə bilməzdi. Hər nə qədər Platon Dionis haqqında yaxşı şeylər yazmağa meyilli olsa da, onun bu mühiti həzm etməsi mümkün olmamışdı.

Dionis əvvəldən bəri dövlət idarəetmə sistemində idi və öz şairlik qabiliyyəti ilə ön plana çıxmışdı. Orduda yuxarı rütbələrə yüksəlmiş və dünyaya bir çox, özünəməxsus tragediyalar miras qoymuşdu (bunlar onun əmri altındakı hər kəs tərəfindən sevinclə qarşılanırdı). Sirakuzun idarəetməsini ələ keçirəndə bir sıra qana susamış səfərlərlə bu şəhər dövlətini Yunanıstanın qərb koloniyaları arasında ən gücülüsünə çevirdi. Afinalılar da aralarındakı diplomatik münasibətlərə zərər gəlməməsi üçün (təbii ki, özlərinin təhlükəsizliyini təmin etmək üçün çox da uyğun olmamağına rəğmən) Dionisin müəllifi olduğu *"Hektorun dəyəri"* dramına Lenaen festivalı zamanı mükafat verilməsini təmin etdilər.

Dionis iş axtaran, müəmmalı, özünü ağıllı hesab edən bir filosofa meydanı buraxacaq adam deyildi. İkisi fəlsəfə haqqında müzakirə etdiklərində ortalıq saçılan qığılcımlarla xarabalığa çevrilirdi. Bir dəfə Platon Dionisi bir düşüncə xətası haqqında xəbərdar etmək qəflətini göstərmişdi.

Dionis *"sözlərin yaşlılıq qoxur",* – deyərək qəzəbli bir şəkildə qarşılıq vermişdi.

Platon heç geri qalarmı, o da *"sənin sözlərində bir zalımın sevinci var",* – deyə cavab verir.

Buna görə də, Dionis Platonun ona yaraşdırdığı bənzətməyə uyğun davranmağa qərar verir və Platonu zəncirə vurdurur. Platon Agina adasın gedəcək olan bir Sparta gəmisinə mindirilir və kapitana da Platonu kölə olaraq satması əmr olunur. *"Onun üçün narahat olma",* – deyir Dionis, *"o elə bir filosofdur ki, baş verənlərin fərqində belə olmayacaqdır".*

Bəzi müəlliflərin fikrincə, Platon getdiyi yerdə öz həyatı üçün təhlükəli vəziyyətlə qarşılaşmışdı. Dionisin Platonu Afina yox, Agi-

na adasına göndərməyi onun doğum yerinin Agina olduğu, yəni Platonun doğum yerinin Afina yox, məhz bu adanın olduğu iddialarını gücləndirir. Platonu kölə olaraq öz doğma yurduna göndərmək Dionisin zövq alacağı özünəməxus, qurur qırmaq metodu olmalı idi. Bundan əlavə Platonun tanınacağından və zəngin bir dostu tərəfindən satın alınıb azad ediləcəyindən də əmindir. Beləliklə, Dionis ciddi diplomatik problemlərin də qarşısını almış olacaqdı (əlbəttə ki, bu bir sonrakı mükafatlandırmaya mənfi istiqamətdə təsir edəcəkdi). Dionisin planı tamamilə düşündüyü kimi işləyir. Platon həyatının ən qorxunc günlərini yaşayır. Hər həqiqi filosofun damarlarında qanının donmasına səbəb olan "*həyatını davam etdirmək üçün işləmək*" düşüncəsi. Platonun Aginadakı kölə bazarında zəngin dostu Kireniyalı Annikeris tərəfindən tanınıb iyirmi sikkə endirimli qiymətə satın alınması çox da uzun çəkmir. Annikeris bu dəyərindən daha ucuza alınmış filosofa o qədər sevinir ki, üstəlik ona Afinada məktəb açması üçün yetəri qədər də pul verir.

E.ə. 386-cı ildə Platon Hekademos meşəliyində ərazi satın alır. Bu ərazi təxminən Afinanın bir kilometr şimal qərbində, şəhərin köhnə divarlarından kənarda idi. Ərazidə çinarların kölgəsində heykəllər və bir məbəd yer almaqda idi. Burada şırıltı ilə axan dərələrin və ağaclı yolların ortasında Platon Akademiyasını açaraq özünə inananları ətrafına toplamışdı. Hətta bunların arasında bir çox qadın da var idi (hətta bunlardan biri olan Axiofeya kişi geyimləri geyinirdi). Bura tarixdə qurulmuş ilk universitet idi.

Platonun Akademiyasını qurduğu (və məktəbin də eyni adı daşıdığı) Hekademos meşəliyi öz adını Yunan mifologiyasının tanrılaşdırılmış qeyri-müəyyən obrazından almışdı. Göründüyü qədərilə etmiş olduğu ən önəmli iş 12 zeytun ağacı əkmək və müqəddəs Afina zeytun ağacını Akropolda budaqlandırma üsulu ilə yetişdir-

məkdən ibarət idi. Platonun Akademiyasını burda qurmağa qərar verməsi bütün mədəni dünyaya Hekademosu xatırlatmışdı. Beləliklə, bu gün Hekademosun adı müxtəlif qurumlarda yaşayır: Meyxanalardən ("pivə akademiyaları") pivə istehsalı üçün təhsil verən məktəblərə, mədən müəssisələrindən bir Şotland futbol komandasına, bir birinə bənzəyən qaranlıq güclərə malik yarı tanrıların illik mükafat mərasimlərinə qədər adı bir çox yerdə keçir.

Bu gün Hekademos meşəliyi Afinanın şimal şərqində kənar məhəllələrlə tarlaların iç-içə keçdiyi bir zolaq uzunluğunda olsa da əkilməmiş (əl dəyilməmiş) çoraq tarladan ibarətdir. Ağacların altında, avtobus məzarlığının yanında, yığınlar halında zibil və bir neçə kirli oturacağın arasında bir neçə antik daş dağınıq halda durur.

Platonun Akademiyasının olduğu yer və yaşadığı ev, böyük ehtimalla, sonsuzadək itib getmişdir. Filosofun biri gələr, biri gedər, amma Hekademos bizi hər zaman qonaq edəcəkdir. Hekademosun evi təəccüblü şəkildə yerində qalmışdır. Arxeoloqların qayğı ilə qoruduqları metal lövhədən damın altında Platonun dövründən təxminən iki min il daha qədim olan, sərbəst (üsulla) qurulmuş kərpic özül və divarlardan geriyə qalanları görmək mümkündür. Hekademos sankı ölümsüzlüyün sirrini bilirmiş.

Bu gün bu əl dəyilməmiş tarlalar hasarla əhatələnmişdir. Orada hökm sürən həyat şərtləri Hekademosun qədim tarixini (prehistorik) xatırladır. Dəlik-deşik daxmaların və su çalalarının arasında, isti günəşin qovurduğu ətrafı milçəklərlə sarılmış, başları keçəl qazınmış, çılpaq qaçqın uşaqları oynayır. Hicablı anaları isə tullantıların, toz torpağın içərisində tünd rəngli uşaqlarını əmizdirir.

Platon məşhur əsəri Dövlətdə *"ədalət nədir?",* – deyə soruşur.

Bu dialoqda Sokrat və bir neçə dostu rəsmi vəzifəsi olmayan zəngin dostlarının evində axşam yeməyi üçün toplaşırlar. Danışmaq üçün sıra Sokrata gələndə artıq heyət ədalət faktının təklikdə yox, daha böyük ictimai kontekstdə nəzərdən keçirilə biləcəyi nəticəsinə gəlmişdi. Buna görə də, Sokrat düşüncələrini daha ədalətli bir heyətə açmağa qərar verir.

Hər kəs Platonun Sokratın baş rolda oynadığı ilkin dövrə aid dialoqlarının həqiqətən Sokratın görüşlərini əks etdirdiyi düşüncəsindədir. Orta dövr və daha sonrakı dövrə aid dialoqlarında isə vəziyyət dəyişir. Bunlarda ümumi fikrə görə, Platon öz şəxsi fikirlərini qeyd etmişdi. *"Dövlət"* orta dövə aid dialoqları arasındakı ən vaciblərindən biridir.

Platonun ədalətli cəmiyyət üçün gərəkli gördüyü ünsürləri çərçivələyəcək olsaq, onun bir çox fərqli sahədən təşkil olunmuş düşüncələr ortaya qoyduğunu görə bilərik. Bunlardan bəzilərinin xülasəsi belədir: İfadə azadlığı, feminizm, doğuma nəzarət, rəsmi və şəxsi əxlaq, valideynlik, psixologiya, təhsil, rəsmi və şəxsi mülkiyyət. Qısaca, şən bir axşam yeməyi mühitində heç vaxt danışılmayacaq bir çox mövzu. Bununla birlikdə *"Dövlət"* bir komediya ünsürü olaraq planlanmamışdı və içərisində təbliğatı aparılan cəmiyyət forması, əslində əyləncəli olmaqdan başqa digər hər şey idi. Platonun fikirləri müasir bir insanın fikirlərindən təməldən etibarən ayrılır (Əgər bu insan fanatik ya da dəli deyildirsə).

Platonun ideal dövlətində nə pul, nə də evlilik var (bu istisna sadəcə alt təbəqələr üçün keçərlidir). Uşaqlar doğumdan dərhal sonra analarından ayrılacaq və dövlət tərəfindən böyüdüləcəkdi. Beləliklə, dövləti anaları və ataları, həm yaşıdlarını da öz qardaşları olaraq görəcəklər. İyirmi yaşına gələnə qədər bu zorakı (metazor) qeyri-qanuni uşaqlar gimnastika və ruhlarına xitab edən musiqi ilə

yetişdiriləcəklər. Ancaq İoniya və Lidiya nəğmələrinə icazə yox idi. Sadəcə gənc insalara dövlət sevgisi aşılayacaq marşlara icazə var idi).

Bunu oxuduğumuzda istər-istəməz özümüzdən görəsən Platonun uşaqlığı neçə keçmişdir deyə soruşuruq. Diogen Laeritusdan öyrəndiyimiz qədəri ilə, Platonun atası qüsursuz gözəlliyə sahib olan Platonun anasına qarşı fərqində olmadan zorakılıq etmək istəmişdi. Platon dəqiq şəkildə evlilik nəticəsində doğulmuş bir uşaq olsa da, anası bir müddət sonra başqa bir adamla evlənir və Platon da böyük ehtimalla fərqli yerlərdə böyüyür. Hər halda bundan ötrü Platon ailə həyatına çox da önəm vermirdi.

Nə isə, Platon tərzi ütopiyaya geri dönək: iyirmi yaşına çatıb hələ də yüngül atletika və fanfar trubaları ilə davam edən fəaliyyət proqramına lazimi əhəmiyyəti verməyən saman çöpünün buğdadan ayrılma vaxtı gəlmişdi. Bu çöp daha aşağı səviyyəli peşələrə yönəlməyə məcbur qalacaq, əkinçi ya da tacir olaraq cəmiyyəti bəsləyəcəkdi. Daha yaxşı şagirdlər isə hesab, geometriya və astronomiya öyrənəcəkdi. Bir sonrakı mərhələdə uğursuz olanlar isə riyazi bacarıqları ilə çılğınlığın bir addımlığına gəlmiş şəkildə orduya qatılacaqdı. Geriyə qalan: Qaymağın qaymağı. Beş il boyunca, otuz beş yaşına gələnə qədər fəlsəfə təhsili almaq kimi ali şərəfə nail olacaqlar. Ondan sonra on beş il ərzində dövlət idarəetməsi praktikası haqqında baş yoracaq və dünya qədər biliyin dibinə çatmağa çalışacaqdılar. Əlli yaşına gəldiklərində isə artıq dövlət idarəetməsində yer almağa hazır olacaqdılar.

Malı mülkü olmayan filosof-hökmdarlar birlikdə yataqxanalarda qalacaq və canları kiminlə istəsə onunla da yatacaqdılar. Kişilər də, qadınlar da eyni haqlara sahib olacaqdı (Başqa bir dialoqda isə Platonun qələmindən bu açıqlama qaçırdı: Əgər ruh kişi bədənində

yaxşı həyat sürmürsə, qadın bədəninə keçir). Bu seçilmişlər icması birlikdə yaşadığı üçün və xüsusi maraqları olmadığı üçün rüşvət onların yanına belə yaxınlaşmayacaqdı. Onların tək istəyi dövlətdədir və ədalətin təcəlli etməsini təmin etməkdən ibarətdir. Dövlət rəhbəri filosof-kral onlar arasından seçiləcəkdi.

Haqqında danışdığımız bu eskizlər, ideal şəhər dövləti (dənizdən on beş kilometr uzaqlıqda) üçün ortaya atılmışdı. Amma ən əlverişli şərtlərdə belə bir fəlakətin başlanğıcı müşahidə olunmaqdadır. Planlana biləcək ən yaxşı vəziyyətdə belə ordakı həyat insanı axmaqlığa sürükləyən yeknəsəklikdə olacaqdı. Çünki bütün şairlər və dram yazarları ilə xalqın arasında yanlış müsiqini icra edən hər kəs cəmiyyətdən kənarlaşdırılacaqdı. Ən pis vəziyyətdə isə nəticə totalitar bir kabus olacaqdı. Elə bir kabus ki, sevilməyən bir rejimin iqtidarı öz əlində saxlamasına belə ehtiyac qalmadan, o məlum, xoş olmayan metodların cəmiyyətə hakim olması kimi.

Artıq zəmanəmizdə bu ciddi, uşaqca fantaziyanı parçalamaq çox asandır. Platonun ifadə tərzi belə bəzi ziddiyyətlərə malikdir. Şairlər qadağandır, amma Platon çoxsaylı, möhtəşəm gözəllikdə, şairanə obrazlardan faydalanır. Eyni zamanda tanrılara hörmət etməklə yanaşı, din və mifologiya da qadağandır. Lakin buna baxmayaraq Platonun etdikləri özündə çox sayda mif daşıyır və filosof karallar qüvvətli şəkildə rahiblərin gizli cəmiyyətini xatırlatmaqdadır. Platon uzlaşma bilməyən və şəksiz iman edilməsi lazım olan İdeal-tanrını da özü icad etmişdi (varlığını sübut etmək mümkün olmadığı halda).

Platonun ideal dövlət görüntüsü tamamilə öz çağının uşaqca düşüncəsi kimi görünür. Afina Pelopones müharibəsində Spartaya yenicə məğlub olmuşdu. Nə demokratiya, nə də tiran hakimiyyəti davamlı ola bilmişdi və təcili nizamı təmin edəcək bir hökümətə

ehtiyac var idi (Bəzi şərhçilər Platonun nizamdan bəhs edərkən məhz bunu nəzərdə tutduğu düşüncəsindədirlər). Sparta tərzi, sərt nəzarət altındakı cəmiyyət, bu sualın cavabı kimi görünürdü. Sparta Afinanın əksinə iqtisadi baxımdan olduqca geri qalmış şəhər dövləti idi. Həyatda qalmaq üçün qanının son damlasına qədər döyüşən, hər əmri yerinə yetirməyə hazır, vurub dağıtmaq istəyi ilə yanıb alışan bir zümrəyə ehtiyac var idi. Get-gedə daha çox üsyan qaldıran aşağı təbəqələr bu zümrə tərəfindən terrorla yatırılır və davamlı şəkildə daha da güclənən qonşu şəhər dövlətlərinə göz dağı verilirdi. Platon Spartanın döyüşçü zümrəsinin təyinatından ya xəbərsiz idi, ya da onları gözməzlikdən gəlirdi.

Sokrat saf əxlaqı irəli sürərək yaxşıların xoşbəxt olduğunu müdafiə edərkən, Platon daha çox ədalətli olmayanların xoşbəxt olmadığına inanırdı. Ona görə, ancaq ədalətli cəmiyyət yaradıldığı zaman hər kəs özünü yaxşı hiss edəcəkdi. Bəs təklifləri nələr idi? Hekademos meşəliyində hər kəsdən ayrı yaşayan nəcib ruhlu bir mütəfəkkir nə təklif edə bilərsə, o. Bu təkliflər heç bir zaman həyata keçiriləcək növdə deyildi.

Təəccüblüdür, amma bu yenə də tətbiq edildi. Kiçik bir dəyişikliklə, yəni olduqca ədalətsiz şəkildə. Min ildən uzun bir müddət Orta əsrlər cəmiyyəti aşağı təbəqələri, döyüşçü zümrəsi və dindar sinfi ilə Platonun Dövlətinə böyük bənzərliklər göstərmişdi. Yaxın keçmişdə də kommunizm və faşizm Platon ütopiyasının ana xətlərini mənisəmişdi.

Uzun illər ərzində Platon Akademiyada dərs demiş və Akademiyanı da qalıcı şəkildə Afinanın ən yaxşı məktəbinə çevirmişdi. Bir müddət sonra e.ə. 367-ci ildə dostu Diondan tiran Dionisin öldüyünü və yerinə oğlu Dionisin (Gənc Dionis) keçdiyini öyrənir.

Gənc Dionis uzun illər ərzində atası tərəfindən zindanda saxlanılmışdı. Bunu Dionis öz taxtını daha erkən itirməmək üçün etmişdi. Kral sarayında həbsdə olan Gənc Dionis günlərini taxta yonaraq masa və stul düzəltməklə keçirmişdi.

Dion, filosof-krallar tərzi ilə ideal bir hökmdar yaratmaq üçün bunun mükəmməl fürsət olduğu görüşündə idi. Gənc Dionisin ağılı hələ ki, başqa cür düşüncələrlə qarışmamışdı (ya da danışlanlara, yazılanlara inansaq, heç bir düşüncəsi yox idi). Platon, artıq nəzəriyyədəki dövləti praktikaya çevirə biləcəkdi.

Bəzi səbəblərdən ötrü Platon bu düşüncəni cəlbedici hesab etmirdi (Hər halda onu narahat edən İdeal dövlətində 60 yaşında birinin mövqeyi idi. Üstəlik də seçilmişlər arasında daxil olmamışdan əvvəl uzun müddətli gimnastika, hərbi xidmət və dodaq qarmonu (harmonica) təhsilinə dözə biləcəkdimi?). Amma ən sonunda özünə qarşı hörmətini itirmək qorxusu güc gəlir. Belə etməsə, özü belə, heç fəaliyyətə keçməyən, ancaq danışan varlığa çevrilmiş olmayacaqdımı? Nəhayət, dostunun xahişini yerinə yetirməyə qərar verir və onunla birlikdə uzun Siciliya səyahətinə çıxır.

Platon Siciliyaya çatanda, demək olar ki, çəkişmələrlə yeyilib bitirilmiş bir sarayla qarşılaşır. Bəzi nüfuzlu saray əhli Afinalı usta mütəfəkkirin bura ilk gəlişini xatırlayırdı və onlardan bəziləri Diona heç də yad deyildi. Bir neçə ay belə keçmədən fəlsəfə düşmənləri Platon və Dionun xəyanətlə ittiham olunmalarını təmin edirlər (Bu bir ütopiyanı gerçəkləşdirməyə çalışanların çox vaxt düşdükləri tələdir). Dülgər-kral əvvəlcə nə etməli olduğunu tam olaraq bilmir. Sonra dayısı Dionu sahib olduğu qüdrətdən dolayı sürgünə göndərir, lakin Platonun aradan çəkilməsinə də icazə vermir. Səbəb olaraq da Platonun Afinada özü haqqında mənfi danışmasını istəmədiyini qeyd edir.

Bu bu məsələ ilə bağlı olaraq Platon *“Akademiyamızda yetəri qədər mövzumuz var və heç vaxt bunun üzərində durmağımıza gərək yoxdur”* cavabını verir.

Platonun bəxti gətirir və bir neçə dostu qaçmasına köməklik etməyi bacarır. Afinaya geri dönür. Dion da daxil olmaqla bütün tərəfdaşları ona rahatlıq verən bir qarşılama hazırlamışdılar.

Gənc Dionis Platonun qaçışı ilə böyük yara alır. Sən demə onun fikirlərini tətbiq etməyə heç niyyətli olmasa da, bu filosofla etdiyi söhbətlərdən böyük zövq alırmış. Bir vaxtlar Karfagenlilərin İtaliyada etdikləri fəthləri dayandıra biləcək tək dövlət olduğu üçün Sirakuz bu cür təcrübələrə cəhd göstərəcək vəziyyətdə deyildi. Əgər Platonun dövlətini Sirakuzda gerçəkləşdirməyi sınamış olsaydılar, onda bütün dünya tarixi tamamilə başqa görünüşdə olardı. Lakin Platonun umduğu kimi də ola bilməzdi. Sirakuzanın çökməsi ilə Karfagen gözlə qaş arasında İtaliyanı ələ keçirəcək və hələ yenicə formalaşmaqda olan Roma Respublikasını da parça-parça edəcəkdi. Beləliklə, Avropa növbəti əsrlərdə Afrika İmperiyasının bir hissəsi olacaqdı.

Gənc Dionis Platonu təxminən ata kimi görmüş olmalı idi. Platonun dayısı Diona göstərdiyi marağı da şübhəsiz ki, qısqanırdı. Dionis Platonu Afinanı tərk edib Sirakuza geri dönməsi üçün sıxışdırmışdı. Bu vəziyyət onda ehtirasa çevrilmişdi. Sanki ruhu Platonun istilasında idi və onu dinləyən hər kəsə (insan kral olduğu zaman onu dinləyənlərin sayı hər halda xor görüləcək qədər az deyildi) Platonla birlikdə olmadığı müddətcə varlığının çox da dözüləcək bir şey olmadığını danışırdı. Ən sonunda özünü ram edə bilmir və ən sürətli triyerasını (üç kürəkli sürətli dəniz gəmisi) Afinaya göndərir. Əgər Sirakuza dönməzsə, Dionun burada heç də az sayılmayacaq mal-varlığını ələ keçirəcəyi ilə Platonu təhdid edir.

Beləliklə, yetmiş bir yaşlı filosof istər-istəməz Sirakuza doğru yenidən yola düşür. Dion (böyük ehtimalla) onu bir vasitə ilə aldatmış olmalı idi. Artıq Dionun ütopiyanın gerçəkləşdirilməsi və *"Tirana ruhun bədənə qarşı üstünlüyünü göstərmək düşüncəsi"* kimi məsələlər üzərində durmadığı açıqca ortada idi.

Platon tezliklə özünü yenidən əsarətdə tapdı. Mədəsini gündə iki dəfə İtalyan yeməkləri ilə doldurmağı rədd edir və hər axşam ondan soruşulmadan yatağına göndərilən dişi subyektləri qızğınlıqla hüzurundan uzaqlaşdırırdı. Bəxti bir dəfə də gətirir və bir gün gecə yarısı onu aparmaq üçün öz triyerası ilə gələn, onunla eyni hisləri yaşayan Tarentli bir Pifaqorçu tərəfindən qaçırılır. Triyera kölələri qırbacların şaqqıltısı altında ölüncəyə qədər işləyir və yaşlı filosof dənizi keçərək Afinaya çatır.

Bir neçə il sonra Dion, bəlkə də, ən əvvəldən etibarən hədəflədiyi məqsədinə çatır. Sirakuzu fəth edir, Gənc Dionisi qovaraq bütün iqtidarı əlinə keçirir. Bəs indi, əlinə fürsət keçdiyinə görə Platonçu dövləti gerçəkləşdirdimi? Göründüyü kimi xeyir. Amma şairanə ədalət bir zəfər qazanmış olur ki, uğursuz Platonçulara məxsus bir uğurdur bu. Qısa bir müddət sonra Dion təxribatın qurbanı olur. İşin qəribə tərəfi isə məhz Platonun keçmiş tələbələrindən biri tərəfindən. Bu artıq filosofun siyasi sərgüzəştlərinin sonu olur. Beləliklə, gələcəkdəki Roma İmperiyasının təhlükəsizliyi təmin edilmiş olur. Lakin Platonun sınanmış nəzəriyyələri, irəlidə Roma İmperiyasının qalıntılarından meydana gələn Orta əsrlər dünyasına bir model formalaşdırmağa imkan verəcəkdi. Daha sonra da Hitler və Stalin onun ideyalarını ön plana çıxaracaqdılar.

Yaxşı bəs, Platonun bütün bunlarla heç bir əlaqəsi yox idimi? Onun baxışına görə, doğru bilgi ya da qavrayış duyğularla yox, sadəcə zəka ilə əldə edilə bilərdi. Əgər ağıl həqiqətə çatmaq istəyirsə,

davranış dünyasından əl ətəyini çəkməlidir. Əgər Platon həqiqətən buna inanırdısa, öz ütopiyasında niyə daha çox qanun qoymaq üzərində fikrini cəmləşdirdiyini anlamaq çətindir. Bu cür bir fəlsəfə ilə praktiki siyasət uyuşmadığı halda filosoflar idarəetmədə olmadığı ya da hakimlərin fəlsəfə haqqında baş yormamasına rəğmən Platon ömrünün sonuna qədər bu məsələdəki inancından bir zərrə də olsa əl çəkməmişdi (lakin gerçək həyatda işlər tam əksinə gedir: Fəlsəfi düşüncələrdən ilhamlanmış iqtidar sahibləri fəlsəfi cahillərdən daha yaxşıdır).

Platon fəsəfəsi apolitik tərəfi ilə də əsrlər boyu davam edən hakim təsirə malik olmuşdu. Təməl prinsipləri səbəbi ilə Xristianlıqla qüsursuz şəkildə uyğunlaşmışdı. Belə ki, izah etmək işində bir qədər də radikal davranaraq, Platonçuluğun saf bir inancla başlamış olan bu gənc dinə fəlsəfi təməl hazırladığı belə qeyd edilir. Bu da mənəvi tarix mövqeyindən insanı elə bir yerə gətirib çıxarmışdı ki, xristianlığa inanmamaq yetərli olmamış, hətta onu təkzib etməyə ehtiyac yaranmışdı.

Platon ideyalar təliminə *“mağara alleqoriyası”* ilə başlayır. Burada insanlar arxalarında alovlar yanan, mağarada zəncirə vurulmuş varlıqlara bənzədilir. İnsanlar sadəcə titrəyərək yanan alovun kölgəsini görürlər. Onlar gerçək kimi görünəni göz ardı etməyi öyrənədək və özlərini mağaradan kənardakı günəş işığına yönəltdiklərində gerçəyin fərqinə varacaqlar.

Platon ətrafımızda davamlı olaraq dəyişən görünüşlərdən yaranmış bir dünyanın olduğunu ortaya qoyurdu. Gündəlik təcrübələrimizin çeşidliliyi öz formasını, sadəcə mücərrəd formaların və ya ideyaların zamana bağlı olmayan, dəyişməz dünyasından alır. Bir köpək sadəcə olaraq köpəkdir, çünki ümumi keyfiyyəti içərisində bütün köpəklərin hamısının birlikdə forma verdikləri bir köpək

“ideya”sında yer alır. Eyni zamanda gözəl bir nəsnə gözəl olanın “ideyası” içərisində yer alır. Platona görə, davamlı olaraq dəyişən süni illuziyalardan yaranmış dünyanı göz ardı edərək və ideyaların zamana bağlı olmayan gözəlliyi üzərinə fokuslansaq, “ideyalar” yerarxiyası ilə gözəl, doğru və yaxşı “ideyalarının” ən ali və mistik anlayışına çata bilərdik.

Bu nəzəriyyə dünyanın eynilə dil kimi işlədiyi görüşündədir, ancaq bu dildə mücərrəd anlayışlar və strukturlar daha yüksək bir səviyyəyə yerləşmişdir. Bu nəzəriyyə hər nə qədər yanlış olsa da, buradakı yanılğıdan bu günə qədər xilas olmağı bacarmamışıq. Əgər həqiqət dünyası yaşadığımız anlar və dil vasitəsilə qavrayıb müəyyən etdiyimizdən fərqlidirsə, o təqdirdə bu fərqi bir gün necə anlayacaqdıq?

Platon səksən bir yaşında öləndə Akademiyada dəfn olunur. Fəlsəfəsinin tətbiq olunacaq növdə olmamasına rəğmən ortaya atdığı fərziyyələrin çoxu bu gün belə dünya haqqındakı görüşlərimizə təsir etməkdədir. “Platonik” keyfiyyət halı gedərək mümkünsüz hal alan eşq formasını (daxili yanı ilə deyil, saf fikri istiqaməti ilə örtüşən) vurğulayır. Platonun Akademiyası 529-cu ilə qədər Afinada varlığını davam etdirmişdi. Bu tarixdə isə Xristianlıq qarşısında mənfur-Ellin mədəniyyətini öz təzyiqi altına almaqda qərarlı olan Roma İmperatoru Yustinian tərəfindən qapadılmışdı. Bu tarix bir çox tarixçi tərəfindən Yunan-Roma müədəniyyətinin sonu və Qaranlıq Orta əsrlərin başlanğıcı hesab olunur.

# Platonun əsərlərindən seçmələr

"Fəlsəfə heyrətlə başlayır. Çünki filosofu başqalarında fərqləndirən keyfiyyət də bu mənəviyyatdır, heyrətdir."

*Teitet, 155d*

**Sokrat:** İndi də insan deyilən varlığı təhsillə aydınlanmış və aydınlanmamış olaraq düşün. Bunu bu cür bir bənzətmə ilə izah edim: Yeraltında mağaraya bənzər, qarşısında başdan-başa işığa açılan bir giriş olan və içərisində insanların olduğu bir yer var. Bu mağarada insanlar uşaqlıqlarından bəri boyunlarından, ayaqlarından zəncirə vurularaq yaşayırlar. Nə tərpənə, nə də burunlarının ucundan başqa bir yer görə bilirlər. O qədər sıx bağlanıblar ki, başlarını belə çevirə bilmirlər. Arxalarında yüksək bir yerdə bir alov parıldayır. Məhbuslarla alov arasında dimdik bir yol var. Bu yol boyu alçaq bir divar var. Hansı ki, müqəvva oynadanların izləyicilərlə öz aralarına qoyduqlar və üzərində  bacarıqlarını sərgilədikləri kimi bir divar.

**Glaukon:** Gözlərimin önündə canlanır.

**Sokrat:** Bu alçaq divar arxasında əllərində növbənöv alətlər olan insanlar düşün. Daşdan, taxtadan düzəldilmiş, insana, heyvana və ya başqa şeylərə bənzəyən müqəvvalar daşıyırlar. Bu daşıdıqları şeylər divarın üzərindən görünür. Gedib-gələn insanların bəziləri danışır, bəziləri də susur.

**Glaukon:** Doğrusu, qəribə bir səhnə və qəribə məhbuslardır.

**Sokrat:** Amma eynilə bizlər kimi. Bu vəziyyətdəki insanlar özlərini və yanındakıları necə görürlər? Ancaq arxalarındakı alovun aydınlığı ilə mağarada qarşılarında görünən kölgələri görə bilərlər, elə deyilmi?

**Glaukon:** Ömürüləri boyu başlarını çevirmələri mümkün olmadığına görə yəqin ki.

**Sokrat:** Üstəlik divarın üstündən keçən nəsnələri də eyni şəkildə görməzlərmi?

**Glaukon:** Bəli, onların da sadəcə olaraq kölgələrini görərlər.

**Sokrat:** Bu insanlar öz aralarında danışacaq olsalar, kölgələrə verdikləri adlar gerçək nəsnələri izah etdiklərini sanarlar, elə deyilmi mi?

**Glaukon:** Tamamilə

**Sokrat:** Bir də bu zindanın içərisində bir əks-səda düşün. Keçənlərdən biri həmin an danışsa, bu gələn səsi kölgənin səsi hesab etməzlərmi?

**Glaukon:** Zevsə and olsun ki, mən belə düşünməmişdim.

**Sokrat:** Əlbəttə ki, bu adamların gözündə həqiqət nəsnələrin kölgələrindən başqa bir şey ola bilməz.

**Glaukon:** Tamamilə qaçınılmazdır.

*Dövlət, VII, 514, 515*

**Sokrat:** Əgər bu dediklərimiz doğrudursa, bunlardan bu nəticəni çıxara bilərik: Təhsil bir çox insanın sandığı kimi bir şey deyil. Onlara görə, təhsil bilgidən yoxsun ruha bilgi əkməkdir. Kor gözlərə görmə gücü vermək kimi…

**Glaukon:** Bəli, elə deyirlər.

**Sokrat:** Lakin bizin söhbətlərimiz onu da göstərir ki, hər ruhda bir öyrənmə qüvvəsi və bu işə yarayan bir orqan var. Gözün qaranlıqdan aydınlığa dönməsi üçün necə bədənin birdən dönməyi lazımdırsa, bu orqanın da bütün ruhla birlikdə keçici şeylərə arxasını dönərək varlığa, varlığın ən işıqlı yönünə baxmağı lazımdır, yəni yaxşı olana, elə deyilmi?

*Dövlət, VII, 518*

Tanrı günahsızdır.

*Dövlət, X, 617.*

Bəzilərinin sənin haqqında dediklərini diqqətə al. Sənə lazım olan təkəbbürlü davranmaqdan əl çəkirsənmi? Əgər elədirsə, bunu unutma, insanların bizi sevmək şərti bizim üçün uğurlu bir amildir. Eyni zamanda həzz və tənhalıq da bir-birindən elə də uzaqda deyillər.

*Məktublar, IV, 321c*

Amma dövlətin hər üç sinifin öz işlərini görmələri ilə ədalətli olacağını əlbəttə ki, unutmadıq. Əgər elədirsə, içimizdəki tərəflər-

dən hər biri öz işini gördüyü vaxt biz də öz işini görən ədalətli şəxslər olarıq.

*Dövlət, IV, 441d*

**Sokrat:** Madam ki, ağıl ölçülüdür, içərimizdə baş verən hər şeyi mühafizə edib idarə etmək də onun vəzifəsidir. Qəzəbin vəzifəsi də onu dinləmək və ondan yana olmaqdır, elə deyilmi? Bu formada yetişən, həqiqətən tərbiyyə olunmuş, vəzifələrini bilən və görən bu iki tərəf içimizdə ən çox yer tutan, doymaq bilməyən istəklərə öndərlik edirlər. Bu istəklər maddi zövqlərə meyl edərək qol budaq açmasın, güclənməsin. Öz vəzifəsini yerinə yetirmək əvəzinə başqalarına rəhbərlik etməyə cəhd göstərməsin deyə göz qulaq olurlar. Bu istəklərə başa keçmək səlahiyyəti verilə bilməz. Əgər verilsə, bütün həyatın nizamını pozar.

*Dövlət, IV, 441e, 442a*

**Sokrat:** Əgər elədirsə, yuxunu yuxu kimi qavra. Bəzi insanların bizi və başqa digər şeyləri yaradan ilk elementlərin sübutunun olmayacağını dediklərini mən də eşitmişəm. Özündən və öz-özünə var olan hər şeyə sadəcə ad verilə bilər. Haqqında başqa heç bir şey deyilə bilməz; nə var olduğu iddia edilə bilər, nə də heçliyi. Halbuki bu ilk elementlərdən hərhansı birini, bir sübut yardımı ilə ifadə etmək mümkünsüzdür. Çünki bunlar ancaq öz adları ilə çağrıla bilərlər. Çünki adları onların tək mülkiyyətidir. Bunlardan birləşmiş olanların, eyni şəkidə adları da mürəkkəb bir söz meydana gətirir. Çünki sözlərinin, açıqlamalarının bütün mahiyyəti adlarıdır.

*Teitet, 201e, 202b*

**Sokrat:** Deməli bu məsələdə uzlaşırıq! Biri bir şeyi görür və özündə bu şeyin başqa bir şeyə bənzədiyi düşüncəsi oyanır. Arxasında dayanan və tamamilə bənzər olmayan, əslində dəyəri daha aşağı olan bu şeyin sadəcə öz iddiası ilə bənzər olduğunu və ona əsla çata bilməyəcəyini bir şəxsin çox erkən yaşdan etibarən öyrənməsi lazımdır.

**Simmias:** Gərəklidir.

**Sokrat:** Deməli, eyni şeyləri o zamandan çox daha əvvəl tanımış olmalıyıq. O an gərəkli olduğu üçün müşahidələrimizlə ilk dəfə görürük və bunların hamısı daha sonra ölür. Eyni şəkildə sadəcə arxada dayanan və bənzər kimi görünən şeylərin də sadəcə olaraq düşüncəsinə qapılmış oluruq.

**Simmias:** Tamamilə doğrudur.

**Sokrat:** Əgər elədirsə, bunda da həmfikirik. Bu düşüncələrə başqa heç bir yerdə qapılmırıq. Bunları görərək və ya dadaraq və ya başqa duyğularımızla hiss edərək içimizdə formalaşdırırıq. Bu baxımdan hamısı eyni dəyərdədir.

**Simmias:** Əlbəttə, Sokrat, axtarışınızın nəticəsində gördük ki, hamısı da eyni dəyərdədir.

**Sokrat:** Duyğularımızla hiss etdiklərimizə görə bu düşüncəni qazanmalıyıq; duyğularla hiss etdiyimiz hər şey əslində o çata bilmədiyimiz, içimizdə ölmüş olan bənzərliyin o anda tanınmasıdır. Başqa necə ola bilər?

**Simmias:** Bəli, eynilə.

**Sokrat:** Görmür və eşitmirikmi? Bu anda və geriyə qalan duyğularımızla hiss etməyi də doğumumuzla birlikdə qazanmadıqmı?

**Simmias:** Əlbəttə.

**Sokrat:** Ancaq daha əvvəl duyğuları tətbiq etmədən əvvəl belə bərabərlik və qeyri-bərabərlik anlayışlarına sahib olmağımız lazım olduğu məsələsində razılaşmışdıq, əks təqdirdə onları hiss etməyəcəkdik.

**Simmias:** Bəli.

**Sokrat:** Deməli, göründüyü qədəri ilə hələ doğumdan əvvəl onunu əldə etmiş olmalı idik.

**Simmias:** Bəli, elə görünür.

**Sokrat:** Buna görə də əgər doğuşdan əvvəl bu məlumata sahibiksə və bunu da doğuşdan sonra biliriksə, onda yalnız bərabərlik və nisbi bərabərlik haqqında deyil, həm də bütün əbədi nümunələr haqqında bilik sahibi oluruq. Mütləq bərabərliyə tətbiq etdiyimiz bu əsaslandırma, dəyişməyən gözəlliyə, salehliyə, əxlaqa və müqəddəsliyə eyni şəkildə tətbiq edilə bilər. Ayrıca, "əbədi" ifadəsini tətbiq etdiyimiz bütün digər şeylərdə də təkid edirəm. Bu, doğumdan əvvəl də əbədi fikirlər barədə məlumatımızın olması mənasına gəlir.

*Platon, Fedon, 73 c, 74 e (sonu)*

Bir rəvayətə görə, Sokrat bir gecə yuxuda özünü qucağında qu quşu balası ilə görür. Balaca qu tüklənir, uçacaq gücə qovuşur və sevincdən əks səda verən səsi ilə çox yüksəklərə uçur. Ertəsi gün Sokrat yeni şagirdi Platonla tanış olur və Sokrat yuxusunda gördüyü həmin qu quşunu tanıyır.

*Laertli Diogen, Tanınmış filosofların həyatları və əsərləri 3,5*

Bütün insanlar eynidir, ey Sokrat, deyərək danışdı, hamısı məhsuldardır. Bədən ruhdan əvvəl gəlir və müəyyən bir yaşa çatanda təbiətimiz yaradıcılığı məqsədə çevirir. Amma yaradıcılıq çirkinlə deyil, sadəcə gözəllə ola bilər. Kişi və qadının birliyi də yaradıcılıqdır. Bu əslində ilahi bir hadisədir. Yaratmaq ölümlü həyatlarda ölümsüzlüyü tapmaqdır. Amma uyğunsuz olduğu zaman bunun olması mümkünsüzdür və uyğunsuz olan bütün ilahi olanların çirkinidir. Ancaq gözəl olan uyğundur.

Əgər elədirsə, əsas biliklər verən və doğumu təmin edən ilahə yaradıcılıq üçün gözəllikdir. Məhz bundan ötrü yaradıcılığa həvəslənən gözəl olanla qarşılaşanda sakitləşir, yaradır və məhsuldar olur. Amma çirkin olan yaradıcılıq həvəskarını qaranlıq və hüzün əhatə edir. İstəyi sönür, yaradıcılığı azalır və öz ağır yükünü daşımağa davam edir. Bu səbəblə yaradıcılıq və arzu ilə dolmuş şəxsə gözəl olan daha çox həvəs verir. Çünki gözəl olan onu daha böyük doğum sancıları ilə ortaya çıxarır. Sənin də dediyin kimi, ey Sokrat, sevgi gözəllə əlaqəli deyil. Bəs elədirsə nə ilə əlaqəlidir? Gözəlin içindəki yaradıcılıq və məhsulla əlaqədardır. Çünki yaradıcılıq sonsuza qədər qalır, ölümsüzdür (və ölümlü insanlara da ölümsüzlük qazandırır). Əgər sevgiyə sahib olsaq, yaxşı olana da sahibik deməkdir və ancaq o zaman ölümsüzlüyə çatmağımız mümkün olur. O halda bu söhbət sevginin də ölümsüzlük üçün gərəkli olduğunu deyir.

*Simpozium, 25*

“Buradakı ən önəmli şey budur: heç kəs nəzarətsiz qalmamalıdır; nə kişi, nə də qadın. Nə ciddi fəaliyyətlərdə, nə də oyunlarda kimsə öz istəyinə görə hərəkət etmək üçün özünü tərbiyyə etməlidir. Xeyr,

həm müharibə vaxtı, həm də sülh vaxtı nəzarətçiyə davamlı nəzər salmaq və onun göstərişlərinə əməl etmək lazımdır. Ən önəmsiz şeylərdə belə onlar tərəfindən istiqamətləndirilmələri gərəklidir, məsələn, onun ilk əmrində yerində dayanmaq, irəli getmək, məşqlərə başlamaq, yuyunmaq, yemək, gecə oyanmaq və əmrləri yerinə yetirmək. Qısası imkan verin insan ruhu bir şeyi digər insanlardan ayrı etməmək və bunu necə olduğunu anlamamaq vərdişi qazanmış olsun. Bütün insanların həyatı mümkün ola bildiyi qədər birləşmiş və ortaq olsun. Müharibədə qələbə qazanmaq üçün daha yaxşı, daha faydalı və bacarıqlı bir şey yoxdur və heç vaxt da olmayacaqdır. Bunu çox gənc yaşlardan etibarən və hətta sülh zamanında belə tətbiq etmək lazımdır. Biri başqaları üzərində hökmranlıq etməli və onların əmri altında olmalıdır. Anarxiya insanlara tabe olan bütün insanların və hətta heyvanların həyatından çıxarılmalıdır."

Bu, Stalin Rusiyasından Çindəki Mədəni inqilaba qədər III Reyxi və kommunist rejimlərini öyrənən hər kəsə dəhşətli dərəcədə tanış görünür. Diktaturanın "siyasi elm"i sivilizasiyamızın doğuşundan bəri son iki min ildə çox dəyişməmiş görünür. Eləcə də belə dövlətlərin yaranmasını təşviq edən psixologiya bu müddət ərzində çox inkişaf etməmişdi. Əsrlər boyu Platonun fikirləri insanlığa heç bir zərər vermədi. Kitabları klassiklərin və ilahiyyatçıların rəflərində saxlanılan müddətdə bu görüşlər təhlükəli deyildi. Ancaq elə bir vaxt gəldi ki, elit məktəblərin və pansionatların rəhbərləri onları Viktoriya dövrü təhsil sisteminin əsasına çevirdilər.

XX əsrin ortalarında avstriyalı filosof Karl Popper bu nəzəriyyə ilə faşist ideologiyası arasındakı əlaqəni göstərməyin vaxtı gəldiyinə qərar verdi. Bunu aşağıdakı istinad verdiyimiz "Açıq Cəmiyyət və Onun Düşmənləri" əsərində etdi: "Fərdiyyətçilik, alturizmlə

birləşərək, Qərb sivilizasiyamızın təməlinə çevrildi. Bu, xristianlığın mərkəzi mövqeyidir ("Qonşunu sev", – deyir, Müqəddəs kitab, "qəbiləni sev" demir) və sivilizasiyamızda yaranan, onu bəsləyən bütün əxlaqi doktrinaların əsasıdır. Platon, bu doktrinada öz kasta cəmiyyətinə qarşı düşmən görəndə və ona dövrünün digər "dağıdıcı" təlimlərindən daha çox nifrət edəndə haqlı idi. Heç vaxt insan fərdə qarşı düşmənçiliyini ifadə etməkdə bu qədər açıq sözlü olmamışdı."

Popper, Platonun dövlətini "idarəetmənin ən yüksək forması" olaraq təsvir etdiyi aşağıdakı hissədən sitat gətirir. Platon yazır: "Qadınlar və uşaqlarla yanaşı bütün xidmətçilər, qullar və ev təsərrüfatları dövlətin ümumi mülkü hesab olunur. Fərdiyyətçiliyin ehtimal olunan hər hansı xüsusiyyətini və ya uyğun olmasını istədikləri hər hansı bir şeyi həyatımızdan çıxarmaq üçün bütün mümkün ehtimalları aradan qaldırmalıyıq. Mümkün olduğu qədər və hətta təbiətin özünəməxsus və bənzərsiz yaratdıqları şeylər belə ictimai mülkiyyətə çevrilməlidir. Heç bir şey şəxsi olaraq qalmamalıdır: hətta gözlərimiz, qulaqlarımız da sanki bir insana deyil, bir kollektivə aidmiş kimi görməlidir, eşitməlidir. Son xırdalığına qədər digər şeylər kimi olmaq üçün hər şeyin eyni qəlibə görə edilməsi lazımdır. Onlar sakit razılıqla təriflənir və ya məzəmmət olunurlar, hətta eyni şeylərə görə hamısı birlikdə və eyni anda sevinirlər və kədərlənirlər. Bütün qanunlar bir məqsədə xidmət edir: vətəndaşları mümkün qədər geniş ölçüdə bərabərləşdirmək...

Ən gözəl dövlət forması üçün daha yaxşı bir prinsip tapmaq mümkün deyildi." Bunlar gənc bir ekstremistin fikirləri deyil, yetkin və müdrik bir ağılın əsaslandırılmış hökmləri idi. "Qanunlar" Platonun son əsərlərindən biridir. Demək olar ki, onu üçüncü və sonuncu dəfə Sirakuzadan qayıtdıqdan sonra, yetmiş yaşında ikən yazmışdı.

Bir çox şərhçi, Koplestonun Platonun “Qanunlar” əsərində “Dövlətin ütopik mahiyyətini dəyişdirərək real həyata güzəştlər etdiyi” fikrinə qarşı çıxa bilər. Platonun dövlətinin ütopiya olub-olmadığını bir kənara qoysaq, (hər növdən və bu işdə iştirak edən hər kəs üçün) bu dəyişikliklərin ətrafımızda görmək istədiyimiz həyat üçün bir güzəşt olduğunu ifadə etmək olarmı? Kütləvi təslimiyyətə sahib olan bir dövlət, təəssüf ki, milyonlarla talesiz insan üçün (çoxu üçün də bu günə qədər) bir gerçəkdir. Ancaq bir çoxumuzun Platonun dövlətində görmək istədiyi real həyatdakı güzəştlər haqqında tamamilə fərqli bir fikri var. “Bəli, mənim ütopiyamda yaşaya bilmədiyiniz üçün əvəzinə sizə yer üzündə cəhənnəm verəcəyəm” - bu, Platonun yanaşmasının mahiyyəti kimi görünür. Dediyim kimi, Platonun belə qəribə fikirlərə inanmasının ciddi tarixi və psixoloji səbəbləri var. Bəs ən yaxşı nümayəndələrindən biri həqiqi təhlükə daşıyan belə düşünülməmiş nəzəriyyələrə bağlı qalacaqsa, fəlsəfənin nə mənası var?

İddia edilə bilər ki, Platonun fəlsəfəsi (məsələn, onun fikir dünyası) dövrünün hüdudlarından kənara çıxır, siyasi ideyalar (məsələn, bizim yaşadığımız dünyanın quruluşu) yalnız yarı həqiqi fikirlərin dəhşətli məhsulundan başqa bir şey deyildir. Həqiqətən, onun siyasi baxışlarının zamanın məhsulu olduğunu inkar etməyin mənası yoxdur. Afina ölüm təhlükəsi altında idi və sağ qalmaq üçün ikinci Sparta olmaları lazım idi. On il sonra Afina Makedoniyanın hakimiyyəti altına düşdü.

Təəssüf ki, Platon özünün qorxudan yaranmış rejimini müharibə dövründə, sülh dövründə, təhlükə illərində və onda, yox olanda, çətin və daha səssiz dövrlərdə müdafiə edirdi (sadəcə belə bir rejim şəraitində “yaxşı vaxtlar” ola bilməzdi). Halbuki, bu qorxunc siyasi fikirlər iki min ildən çoxdur ki, Balkan yarımadasının kiçik

şəhərlərində ölməyib. Yayılmağa davam edirlər. Başqa sözlə, Platonun siyasi fikirləri onun fəlsəfəsi qədər əbədidir. Bundan hansı nəticə çıxarmaq olar? Platonun fəlsəfəsi Qərb sivilizasiyasının ən böyük təlimlərindən biri idi və elə olaraq da qalır. Filosofların hələ də cavab tapa bilmədikləri suallar qoyur ortaya, bundan əlavə, xristian ideologiyası üçün intellektual zəmin yaratdı. Bununla belə, Platonun sosial konsepsiyası müasir insanda təəccüb və qorxuya səbəb olur. Bənzər bir düşüncə tərzini Platonun bütün çağdaşlarına xas olması ilə izah etmək çətindir, çünki bu həqiqətə uyğun deyil. Axı, Platon demokratiyanın doğulduğu yer kimi tanınan Afinada yaşayırdı. Çox güman ki, burada yalnız bir nəticə çıxarmaq olar: Platona fəlsəfə üçün beş müsbət, siyasət üçün isə iki mənfi qoyulmalı idi.

# Son söz

Sokratın sonra yerinə tələbəsi Platonun, ondan sonra da Aristotelin gəlməsi ilə böyük yunan filosoflarından meydana gələn üçlü iqtidarın son halqası da tamamlanmış oldu. Aristotel Platonun təlimini davam etdirdi və tənqidi baxışla bu təlimi ələkdən keçirərək öz görüşlərini də onların içərisinə qatdı. Beləliklə, yeni bir fəlsəfə ərsəyə gəldi. Bununla yanaşı Platonun əsl fəlsəfəsi də Akademiyada öyrədilməkdə idi və "Platonizm" olaraq anılırdı. Tələbələri bunu bütün klassik dünyaya yaymışdılar. Roma imperiyasının genişlənməsi ilə birlikdə bu fəlsəfə yavaş-yavaş yayıldı və bununla yanaşı yol boyu yayıldığı bəzi mövqelərini itirdi. Kaliqula və Neron kimi insanlar tərəfindən idarə olunan bir imperiyada siyasi ütopiyalar haqqında spekulyasiyalarla məşğul olmağın heç də ağıllı fikir olmadığı aşkardır. Platonun riyaziyyatla bağlı digər fikirləri də tamamilə göz ardı edildi, çünki Romalıların riyaziyyata heç bir marağı yox idi.

Bir çox Platon tərəfdarı ən sonunda Platonun fəlsəfəsinin doğru olduğunu düşündüklərinə baxmayaraq onun çox vaxt nə dediyini özünün belə bilmədiyi nəticəsinə gəldilər. Elə bir an gəldi ki, Platondan fərqli olaraq onlar özləri Platonun əslində nə demək istədiyini şərh etməyə başladılar. Bunun nəticəsində Platon fəlsəfəsinin yeni bir tərzi - "Platonçuluq" ortaya çıxmış oldu. Bir neçə əsr sonra Platonçular, onların nə dediklərini bilmədiklərini düşünən şəxslər tərəfindən unuduldular. Nəticədə, ortaya "Yeni Platonçuluq" çıxmış oldu. Ümumi olaraq Yeni Platonçular Platonizmin mistik tərəfləri-

ni inkişaf etdirdilər. Onlar çoxluqdan tanrının birliyinə qədər yüksələn varlığın iyerarxiyasına inanırdılar. Bu düşüncənin ən önəmli təmsilçisi eramızın III əsrində İsgəndəriyyədə doğulan  Plotin idi. Plotin İsgəndəriyyədə təhsil almışdı. Həmçinin o, əvvəllər xristian olan bir Platonçudan dərs almışdı. Buna görə də fikirlərinin bəziləri qulağa xristian kimi gəlirdi. Ancaq tədricən Xristianlıq və Yeni Platonçuluq Roma imperiyasına yayıldığında aralarından zəruri olaraq zidiyyət yaranmağa başlandı. Bir müddət ərzində Yeni Platonçuluq yeni dinin axışını əngəlləyən əsas güc oldu. Yenə yüz əlli il qədər sonra eramızın IV əsrində Aristoteldən bu yana ən böyük filosof Hippolu Müqəddəs Avqustinin doğumu ilə müjdələnmişdi. Avqustin xristianlıqdakı intellektual məzmun əskikliyindən dolayı narahat olduğu üçün Yeni Platonçuluğu Xristianlığın teologiyası ilə uzlaşdırmışdı.

Dolayısı ilə bu din sağlam intellektual zəmin qazanmış oldu və Platonun fikirlərinin inkişafı bütün qaranlıq çağlar ərzində mədəniyyətin qorunmağına imkan verən tək gücə çevrildi. Beləliklə, Platonçuluq formalaşdırılmış bir halda xristian mədəniyyətinin tərkib hissəsi oldu və əsrlər boyu ortaya bir çox düşüncə xadimi çıxardı. Bu düşüncə xadimlərinin hər biri Platonun, Platonçuların, Yeni Platonçuların və Müqəddəs Avqustinin görüşlərini digərlərindən daha yaxşı şəkildə anladıqlarını düşünürdülər. Platonçular XX əsrə qədər bütün böyük Avropa universietlərində, xüsusilə Almaniyadakılarda və Kembricdə varlıqlarını davam etdirdilər. Bu günlərdə nəsillərinin sona çatdığı düşüncəsi hakimdir. Amma sürprizlərin qarşısı hər zaman açıqdır.

## Əhəmiyyətli fəlsəfi hadisələrin xronologiyası

E.ə. VI əsr – Miletli Fales ilə Qərb fəlsəfəsinin başlanması.

E.ə. VI əsrin sonu – Pifaqorun ölümü.

E.ə. 399 – Sokrat Afinada ölümə məhkum edilir.

E.ə. 387 – Platon Afinada ilk universitet olan Akademiyanı qurur.

E.ə. 335 – Aristotel Afinada Akademiyaya rəqib məktəb olan Likeyumu qurur.

324 – Konstantin Roma imperiyasının paytaxtını Bizantiona (Bizansa) köçürür.

400 – Müqəddəs Avqustin "Etiraflar" əsərini yazır. Fəlsəfə xristian teologiyasına daxil olur.

410 – Vestqotlar tərəfindən Romanın yağmalanması qaranlıq çağların xəbərçisidir.

529 – Afinada Akademiyanın imperator Yustinian tərəfindən bağlanmağı Ellin düşüncəsinin sonuna işarə edir.

XIII əsrin ortaları – Akvinalı Tomas Aristotel haqqında şərhlər yazır. Sxolastisizm dövrü.

1453 – Bizansın türklər tərəfindən ələ keçirilməsi, Bizans imperiyasının süqutu.

1492 – Kolumb Amerikaya çatır. Florensiyada Renessansın və yunan dilini öyrənməyə marağın canlanması.

1543 – Kopernik Yerin Günəş ətrafında fırlandığını riyazi olaraq sübut edən "Göy kürələrinin hərəkətləri haqqında" əsərini nəşr etdirir.

1633 – Qalileo Qaliley kilsə tərəfindən Günəş mərkəzli kainat nəzəriyyəsindən əl çəkməyə məcbur edilir.

1641 – Rene Dekart müasir fəlsəfəsinin başlanğıcı olan "Düşüncələr" əsərini nəşr etdirir.

1677 – Spinozanın ölümü onun "Etika" əsərinin nəşrinə imkan verir.

1687 – İsaak Nyuton cazibə anlayışını təqdim etdiyi "Principia" əsərini nəşr etdirir.

1689 – Con Lokkun "İnsanın anlaması haqqında esse" əsəri nəşr edilir. Empirizmin başlanması.

1710 – Corc Berkli "İnsani biliyin prinsipləri haqqında traktat" əsərini nəşr edilir və empirizmi yeni istiqamətlərdə inkişaf etdirir.

1716 – Leibnitsin ölümü.

1739-1740 – Devid Yum "İnsan təbiəti haqqında traktat" adlı əsərini nəşr etdirir və empirizmi onun məntiqi hüdudlarına aparır.

1781 – Yumun "doqmatik yuxularından" oyanan Kant "Saf ağlın tənqidi" əsərini nəşr etdirir. Alman metafizikasının böyük dövrü başlayır.

1807 – Hegel Alman metafizikasının ən yüksək nöqtəsi olan "Ruhun fenomenologiyası" əsərini nəşr etdirir.

1818 – Şopenhauer “Dünya İradə və İstək kimi” əsərini nəşr etdirir və Alman metafizikasını Hind fəlsəfəsi ilə tanış edir.

1889 – Nitsşe “Tanrı öldü!” deyə elan edir və Turində dəliliyə məğlub olur.

1921 – Lüdviq Vitgenştayn “Məntiqi Fəlsəfi Traktat” əsərini nəşr etdirir və fəlsəfi problemlərə “yekun həll” tapdığını iddia edir.

1920-ci illər – Vyana çevrəsi Məntiqi Pozitivizmi önə sürür.

1927 – Martin Haydeqqer kontinental və analitik fəlsəfə arasındakı ayrılığın carçısı olan “Varlıq və Zaman” əsərini nəşr etdirir.

1943 – Jan-Pol Sartr “Varlıq və Heçlik” əsərini nəşr etdirir, Haydeqqerin düşüncələrini daha da inkişaf etdirir və ekzistensializmi təşviq edir.

1953 – Lüdviq Vitgneştaynın ölümündən sonra “Fəlsəfi tədqiqatlar” əsəri nəşr etdirir. Linqvistik analizin yüksəliş dövrü.

## Platonun həyatının xronologiyası

E.ə. 428-ci il - Platonun doğulması. Agina adasında dünyaya gəlir, atası və anası hörmətli Afina nəsillərindəndir, oğullarına Aristoles adını verirlər.

E.ə. 399-cu il - Sokratın ölümündən sonra Afinanı tərk edir, Şimali Afrika, Yaxın Şərq və İtaliyaya səyahət edir.

E.ə. 388-ci il - Siciliyadakı Sirakuz hökmdarı I Dionis sarayında peyda olur.

E.ə. 387-ci il - Afinada Akademiyanı qurur.

E.ə. 367-ci il - II Dionisi öyrətmək üçün Sirakuzaya qayıdır, lakin tezliklə oradan qaçır.

E.ə. 361-360-cı illər - Bir daha Sirakuz sarayına qayıdır.

E.ə. 347 ci il - Platonun 81 yaşında ölümü.

B.e. 529-cu il - İmperator Justinian tərəfindən Akademiyanın bağlanması və orta əsrlərin qaranlıq çağlarının başlanması.

## Platonun dövrünün xronologiyası

E.ə. 438-ci il – Afinada Parfenonun qurulması.

E.ə. 431-ci il – Afinanın azad kişi əhalisinin siyahıya alınması (42.000 nəfər, çox güman ki, qulların sayı daha çox idi).

E.ə. 430-cu il – Parfenonun yaradıcısı heykəltəraş və memar Fidinin ölümü.

E.ə. 415-413 – Uğursuzluqla başa çatan Afina Sirakuz hərbi ekspedisiyası.

E.ə. 408-ci il – Evripid Afinanı tərk edir.

E.ə. 404-cü il – Pelopones müharibəsi Spartanın Afinaya qalib gəlməsi ilə başa çatır. Afinada oliqarxlar hakimiyyətə gəlir və terror rejimi qurulur.

E.ə. 399-cu il - Sokratın ölümü.

E.ə. 384-cü il – Aristotelin doğulması.

E.ə. 380-ci il – Komediya müəllifi Aristofanın ölümü.

E.ə. 367-ci il – Sirakuz hökmdarı I Dionis ölür və yerinə oğlu II Dionis keçir.

E.ə. 353-cü il – Kral Mavzol Kiçik Asiyada ölür və Qədim dünyanın yeddi mövcüzəsinə çevrilən məqbərədə dəfn edilir.

## Tövsiyyə olunan ədəbiyyat

Scott Buchanan, ed., *The Portable Plato* (Viking, 1977)

Richard M. Hare, *Plato* (Oxford University Press, 1983)

Richard Kraut, ed., *The Cambridge Companion to Plato* (Cambridge University Press, 1992)

Plato, *The Trial and Death of Socrates: Four Dialogues* (Dover, 1992)

Karl Popper, *The Open Society and Its Enemies, vol. 1: The Spell of Plato, 5th rev. ed.* (Princeton University Press, 1996)

# POL STRATERN
# 90 DƏQİQƏDƏ PLATON

Filosofların ağlın üfüqlərini demək olar ki, heç görmədiyi bir dövrdə Aristokles adlı bir oğlan öz güləşçi ambisiyalarından əl çəkməyə qərar verdi. Platon adını qəbul edərək, bunun əvəzinə fəlsəfədə bir həyata başladı. E.ə. 387-ci ildə o, dünyanın ilk universiteti olan Akademiyanı qurdu və tələbələrinə bütün gördüklərimizin həqiqət olmadığını, sadəcə həqiqi mənbənin təqlidi olduğunu öyrədirdi. Və öz məşhur "Dövlət" əsərində "ən yüksək idarəetmə forması" siyasətini təsvir edirdi. Paul Strathern "90 dəqiqədə Platon" əsərindən Platonun həyatı və fikirləri haqqında müxtəsər açıqlama təqdim edir və bunların insanın dünyadakı mövcudluğunu anlamaq mübarizəsi üzərindəki təsirini izah edir. Kitabda eyni zamanda Platonun əsərlərindən seçilmiş hissələr, daha da irəli getmək istəyənlər üçün təklif olunan hissələrin qısa siyahısı, Platonu öz dövründə, həmçinin daha geniş fəlsəfə sxemində yerləşdirən xronologiyalar da yer alır.

"Bu kiçik kitabların hər biri hazırcavab (yumoristik) və dramatikdir. Zaman, yer və xarakter duyğusu yaradır. Özümü və dostlarımı Qərb sivilizasiyasına tanıtdırmağın daha yaxşı yolu barədə düşünə bilmirəm" - Katherine A. Powers, Boston Globe.

"Yaxşı yazılmış, aydın və məlumatlı, onlar haqqında yumoristik zəkaya sahibdirlər... oxumağı dayandırmaqda çətinlik çəkirəm" - Richard Bernstein, New York Times.

"Yumoristik, aydın və xoşbəxtlikdən qısa" - Jim Holt, Wall Street Journal.



Pol Stratern (1940- ) Şotland-İrland əsilli yazıçı

Dublin Trinity kollecində fəlsəfə təhsil alıb. Kinqston universitetində riyaziyyat, elm və fəlsəfə üzrə mühazirələr oxuyub. "90 dəqiqədə filosoflar", "Böyük düşüncə: Dünyanı dəyişdirən elm adamları" kimi qısa kitab seriyalarının müəllifidir. Romanları ilə yanaşı səfər təəsüratları, elm, fəlsəfə, tarix, ədəbiyyat, tibb və iqtisadiyyat mövzulu çoxsaylı kitabların da müəllifidir.